**Aynur Aydın qızı FƏRƏCOVA**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Folklor İnstitutunun dissertantı
E-mail:karimovaaynur@gmail.com

# KOROĞLUNUN QƏHRƏMANA ÇEVRİLMƏSİ TEO-KOSMOQONİK İNİSİASİYA PROSES KİMİ

**Xülasə**

"Koroğlu" dastanının Azərbaycan variantlarında Koroğlunun öz anasından necə doğulması təsvir olunmur. Rövşən Koroğlunun igidliyə qədərki adıdır. O, yeniyetməlik mərhələsindən igidlik mərhələsinə adladıqdan sonra buna uyğun olaraq Koroğlu adını alır. Rövşənin Koroğluya çevrilməsi inisiasiya mərasimi vasitəsilə baş verir. Rövşənin Koroğluya çevrilməsi prosesində ən mühüm cəhət bu keçidin təbiət güclərini (stixiyaları) təmsil edən tanrıların iştirakı ilə baş verməsidir. Yəni tanrılar Rövşəndən Koroğlu adlı yeni bir qəhrəman yaratmaqla onu teoqnik Tanrıoğluna çevirirlər. O, artıq adi bir adamdan (Rövşəndən) öz hami tanrılarından güc alan yenilməz qəhrəmana çevrilir. Koroğlunu qəhrəman kimi yaranışında Oğuz-Türk mifologiyasının teoqonik obrazlarının əksəriyyəti ilkin təbiət stixiyaları statusunda (Dağ xan, Ulduz xan, Ağac xan, Od xan) iştirak edirlər. Koroğlunun özü kimi, döyüş atları və silahları da teoqonik semantika daşımaqla ilahi qüvvələrlə bağlıdır. Qırat və Dürat dərya ayğırlarının cinsindədir. Bu, onların teoqonik mənşəyini göstərir. Rövşənin Koroğluya çevrilməsi prosesi başdan-ayağa və bütün detalları ilə birlikdə təbiət stixiyalarını təmsil edən tanrılarla bağlıdır. Bu da onun Tanrıoğlu kimi Oğuz-Türk teoqonik sisteminə daxil olduğunu təsdiq edir.

**Açar sözlər:** teoqoniya-teo-kosmoqoniya, Rövşən, Koroğlu, inisiasiya, keçid ritualı, Tanrı oğlu

**UOT:** 060301
**DOİ:** https://doi.org/ 10.54414/ZIIL8086

## Giriş

"Koroğlu" dastanının Azərbaycan variantlarında Koroğlunun öz anasından necə doğulması təsvir olunmur. Rövşən Koroğlunun igidliyə qədərki adıdır. O, yeniyetməlik mərhələsindən igidlik mərhələsinə adladıqdan sonra buna uyğun olaraq Koroğlu adını alır. Rövşənin Koroğluya çevrilməsi inisiasiya mərasimi vasitəsilə baş verir. Rövşənin Koroğluya çevrilməsi prosesində ən mühüm cəhət bu keçidin təbiət güclərini (stixiyaları) təmsil edən tanrıların iştirakı ilə baş verməsidir. Yəni tanrılar Rövşəndən Koroğlu adlı yeni bir qəhrəman yaratmaqla onu teoqnik Tanrıoğluna çevirirlər. O, artıq adi bir adamdan (Rövşəndən) öz hami tanrılarından güc alan yenilməz qəhrəmana çevrilir. Koroğlunu qəhrəman kimi yaranışında Oğuz-Türk mifologiyasının teoqonik obrazlarının əksəriyyəti ilkin təbiət stixiyaları statusunda (Dağ xan, Ulduz xan, Ağac xan, Od xan) iştirak edirlər. Koroğlunun özü kimi, döyüş atları və silahları da teoqonik semantika daşımaqla ilahi qüvvələrlə bağlıdır. Qırat və Dürat dərya ayğırlarının cinsindədir. Bu, onların teoqonik mənşəyini göstərir. Rövşənin Koroğluya çevrilməsi prosesi başdan-ayağa və bütün detalları ilə birlikdə təbiət stixiyalarını təmsil edən tanrılarla bağlıdır. Bu da onun Tanrıoğlu kimi Oğuz-Türk teoqonik sisteminə daxil olduğunu təsdiq edir.

## Tədqiqat

Azərbaycan "Koroğlu" dastanının variantlarında Koroğlunun öz anasından necə doğulması təsvir olunmur. Biz ona dastanın ""Alı kişi" qolunda yeniyetmə igid kimi rast gəlirik. Həmin qolda deyilir ki, Alı kişi Həsən xanın ilxısını otarırdı. Bir gün ilxı dəryanın kənarında otlayırdı. Dəryadan iki ayğır (erkək at) çıxıb sürüyə qarışır, iki madyanı (dişi atı) mayalayır. Vaxt keçir, madyanlar iki bala verir. Bir gün Toqat paşası

Hasan paşa Həsən xana qonaq gəlir. O, Həsən xandan iki yaxşı ayğır istəyir. Alı kişi dərya atlarından doğulan həmin qulunları gətirir. Qulunların görkəmi Hasan paşanın xoşuna gəlmir. Həsən xan Alı kişiyə başqa atlar tapmağı əmr edir. Lakin Alı kişi inadla öz seçiminin üzərində durur. Qəzəblənmiş Həsən xan onun gözlərini çıxartdırır [11, s.9].

Göründüyü kimi, qolda Rövşənin necə, nə vaxt anadan olması haqqında heç bir məlumat verilmir. Dastanın XIX əsrə aid Aleksandr Xodzko nüsxəsində də Rövşənin doğulması təsvir olunmur [10, s.11]. "Koroğlu" dastanının digər nəşrlərində də Rövşənin doğulması süjeti yoxdur.

Azərbaycan variantlarında Rövşən Koroğlunun igidliyə qədərki adıdır. O, yeniyetməlik mərhələsindən igidlik mərhələsinə adladıqdan sonra buna uyğun olaraq Koroğlu adını alır. Rövşənin Koroğluya çevrilməsi, sadəcə, addəyişmə şəklində baş vermir. Bu, xüsusi bir mərasim, ritualdır və elmdə "keçid", yaxud "inisiasiya" ritualı adlanır.

F.Bayata görə, Koroğlu mifoloji çağın Tanrıoğlu, qurtarıcı qəhrəmanı olmasına baxmayaraq, mifo-epik qəhrəman kimi keçid ritualına tabe tutulmuş, dastana və mifoloji əfsanələrə, şeir parçalarına və toponimik rəvayətlərə Koroğlu kimi qurulduqdan sonra daxil olmuşdur. "Dastanın bütün variantlarında Koroğlu/Qoroğlu yeni statusa dəyişik şəkillərdə keçir" [3, s.56].

Rövşənin Koroğluya çevrilməsi prosesində ən mühüm cəhət bu keçidin təbiət güclərini (stixiyaları) təmsil edən tanrıların iştirakı ilə baş verməsidir. Yəni tanrılar Rövşəndən Koroğlu adlı yeni bir qəhrəman yaratmaqla onu Tanrıoğluna çevirirlər. O, artıq adi bir adamdan (Rövşəndən) öz hami tanrılarından güc alan yenilməz qəhrəmana çevrilir. Bu proses dastanda ətraflı şəkildə təsvir olunmuşdur.

Dastanda deyilir ki, "Günlərin bir günü Alı kişi Rövşəni yanına çağırıb dedi:

– Oğul, buradakı dağların birində bir cüt bulaq var, adına Qoşabulaq deyərlər. Yeddi ildən yeddi ilə cümə axşamı məşriq tərəfdən də bir ulduz doğar. Bu ulduzlar gəlib göyün ortasında toqquşarlar. Onlar toqquşanda Qoşabulağa nur tökülər, köpüklənib daşar. Hər kim Qoşabulağın suyundan içsə, aşıq olar…İndi yeddi il tamam olhaoldur. Vədə çatıb. Get, axtar, Qoşabulağı tap, ancaq köpüyündən bir qab da doldurub mənə gətir!" [11, s.18].

Rövşən Qoşabulağın suyundan içməklə həm söz qəhrəmanına (aşığa, şairə), həm də qılınc qəhrəmanına çevrilir. Bütün bunlar sehrli suyu içməklə baş verir. Lakin Qoşabulağın suyu həmişə sehrli olmur. Su yeddi ildə bir dəfə ulduzların toqquşması nəticəsində əmələ gələn qığılcımların suya tökülməsi ilə qısa bir zaman ərzində sehrli suya çevrilir. Beləliklə, Rövşənin Koroğluya çevrilməsində iştirak edən təbiət ünsürlərindən biri sudur.

Sərdar Dəniz Özdəmir yazır ki, "türk mədəniyyətində su ünsürü gerçək və simvolik mənada olduqca zəngin işlənmə sahəsinə malikdir. "Koroğlu" dastanında su ünsürü ona bağlı motivlərlə birlikdə suyun bütün gücünü göz önündə canlandırır" [13, s.419].

Dastanda görürük ki, digər təbiət ünsürlərinin gücü suya qarışmaqla Koroğlunu yenilməz qəhrəmana çevirir. Bütün bu ünsürlərin qarışmasından sehrli köpük/su əmələ gəlir.

Sümə Çətindağ qeyd edir ki, "köpüyün mayası sudur. Su isə həyatın mayasıdır. Koroğlu bu mayaya və iksirə qovuşmuşdur" [4, s.206].

Rövşənin sehrli sudan içməklə Koroğluya çevrilməsi onun yenidən doğuluşdur. Bu doğuluş suyun vasitəsilə baş verir. Yada salaq ki, Koroğlunun döyüş atları olan Qırat və Düratın da doğuluşunda su ünsürü (dərya ayğırları) iştirak edir. Bu, artıq su ünsürünün zoomorfik əcdad, yəni heyvan (at) şəklində obrazlaşmasıdır.

Qumru Quliyeva (Şəhriyar) Qoşabulaqda əmələ gələn sehrli suyu, haqlı olaraq, dirilik suyu arxetipi ilə əlaqələndirərək göstərir ki, Qoşabulaq obrazı "ilə bağlı mifoloji mətnlərdə və şifahi ədəbiyyatda duirilik çeşməsi (bulağı), dirilik suyu adlı təsəvvürlər mövcuddur" [5, s.660].

Müəllifin Qoşabulağı dirilik suyu arxetipi ilə əlaqələndirməsi tamamilə doğru yanaşmadır. Çünki heç bir adi su Rövşəni yenilməz qəhrəmana və şair-aşığa çevirə bilməzdi. Bu güc, bu qüdrət yalnız folklor mətnlərində müxtəlif adlarla göstərilən dirilik suyunda olur və bu sudan içən kəs hətta əbədi həyat, ölməzlik qazanır.

Dirilik suyu – canlı, sehrli sudur. Yəni bu suyun özü canlı bir varlıqdır. Bu isə onun teoqonik

semantikasına işarə edir. Yəni dirilik suyu tanrılarla, ilahi qüvvələrlə bağlıdır. Həmin suyun sahibi var. Azərbaycan insanlar sistemində həmin sahiblər əyələr adlanırlar. Məsələn, su əyəsi, ev əyəsi, bağ əyəsi və s.Həmin əyələr təmsil etdikləri təbiət obyektlərinin, ünsürlərinin sahibləri olub, tanrı statusundadırlar. Beləliklə, Qoşabulağın da suyu yeddi ildən bir məhz dirilik suyuna çevrildiyi üçün Rövşən onun vasitəsilə yeni bir insana çevrilə bilir. Bu isə bilavasitə su əyəsinin, su tanrısının iştirakı ilə baş verir. Yəni suya bu gücü su stixiyasının sahibi olan Su tanrısı (Su xan) verir.

Oğuz-Türk mifologiyasında bütün ünsürlərin sahibi vardır. Oğuz kağanın altı oğlunu yada salaq: Gün xan, Ay xan, Ulduz xan, Göy xan, Dağ xan və Dəniz xan. Bunlar təmsil etdikləri stixiyaların sahibləri olan insan-tanrılardır. Çünki onların atası Oğuz kağan Tanrıoğludur. Həm maraqlı, həm də səciyyəvidir ki, Rövşənin Koroğlu kimi yenidən yaradılmasında təbiət ünsürlərini təmsil edən başqa tanrıları da iştirak edirlər. Dastandan onların aşağıdakı tanrılar olduğu məlum olur:

Dağ tanrı: Qoşabulaq uca bir dağda (qayada) yerləşir;

Ağac tanrı: Qoşabulaq uca bir ağacın altında yerləşir;

Ulduz Tanrı: Sehri köpük ulduzların toqquşmasından yaranır;

Od tanrı: Ulduzların toqquşmasından yaranan qığılcımlar suya tökülüb onu qaynadır və sehrli köpük əmələ gəlir.

Buradan aydın olur ki, Koroğlunu qəhrəman kimi yaranışında Oğuz-Türk mifologiyasının teoqonik obrazlarının əksəriyyəti (Dağ xan, Ulduz xan, Ağac xan, Od xan) iştirak edirlər.

Qaston Baçelard yazır: “Od ən ali səviyyədə canlı varlıqdır... Qoruyucu və müdhiş bir tanrıdır” [2, s.18]. Bir sıra tədqiqatçılar “Koroğlu” adını qığılcım mənasında olan “qor” sözü ilə də əlaqələndirirlər: Koroğlu – Qoroğlu. S.D.Özdəmir hesab edir ki, “Koroğlu” dastanının atəş (od) ünsürü ilə əlaqəsi qəhrəmanın adı ilə başlayır. Dastanın Şərq mətnlərində qəhrəman haqqında “Qor-oğlu”, yəni odun oğlu kimi bəhs olunur. Odun ən güclü olduğu vaxt onun qor halına gəldiyi andır. “Qoroğlu adındakı gizli güc onun bədənində toplanmışdır və igidliyinin sirri bununla bağlıdır” [13, s.426].

Göründüyü kimi, Rövşəni yenilməz qəhrəmana çevirən təkcə su yox, eyni zamanda od stixiyası, daha dəqiq desək, od ünsürünün sahibi olan Od (Atəş) tanrısıdır. Bu, dastanın Azərbaycan variantlarında zəif müşahidə olunsa da, Şərq variantlarında Əjdaha/Od simvolunda daha aydın təcəssüm olunmuşdur.

Ramazan Qafarlı əjdahanın həm od, həm də su ilə bağlılığı haqqında yazır ki, “ən əski təsəvvürlərdə su odun (ağzından od püskürən əjdahanın) əlində idi” [12, s.340]. Eyni məsələ haqqında Yadulla Ələkbərov göstərir ki, bu sualı biz miflərə, əfsanələrə, nağıllara əsaslanaraq cavablandıra bilərik. Əjdahaların odla bağlı olması məşhurdur. Dünya xalqlarının folklorunda da əjdahalar ağzından od püskürən varlıqlar kimi təsəvvür olunurlar. Azərbaycan nağıllarında əjdaha suyun qabağını kəsir, yer-göy susuzluqdan od tutub yanır. “Beləliklə, su və od əjdaha obrazının funksiyalarında bir-biri ilə məntiqi şəkildə əlaqələnir” [6, s.44]..

Maraqlıdır ki, dastanın bir çox variantlarında, xüsusilə Şərq variantlarında Koroğlunun əjdaha simvolu ilə bağlılığına açıq şəkildə işarə olunur. M.Kaplan, M.Akalın və M.Bali göstərirlər ki, dastanda Koroğlunun od ünsürü ilə olan əlaqəsi bu ünsürün mifologiyada təcəssümü kimi təsəvvür edilən əjdaha ilə simvolizə edilir. Dastanda Kösə Kənan hələ Koroğlunun dəlisi olmamışdan qabaq padşahın hüzuruna gedib, Koroğlunun məğlubedilməzliyi haqqında “Ey padşahım, Koroğlu artıq əjdaha oldu...” deyir [8, s.54].

Dastanın özbək variantında Koroğlu düşmənlərlə qarşılaşarkən özü haqqında deyir: “Əhdaha işarətimdir, sənə uğurlar olsun” [9, s.290].

Dastanın qazax variantında isə göstərilir ki, qırxlar qəbirdə doğulmuş Koroğluya onun minməsi üçün bir aslan gətirirlər. Koroğlu isə bir əjdahadan özünə qamçı düzəldir [9, s.2002].

Koroğlunun qəhrəmana çevrilməsində ağac ünsürü də iştirak edir. Qoşabulağın üstündə uca bir ağac vardır. Onun orada olması təsadüfi deyildir. Türk mifologiyasında yenidən yaradılışın baş verdiyi məkan həm də dünyanın mərkəzini simvollaşdırır. Bu mərkəzin olduğu yer, əksər hallarda dünya ağacı ilə bağlı olur. Belə ki, ağac dünyanın mərkəzini bildirən simvollardan biridir. Asif Hacılı bildirir ki, “dünya ağacı əsatiri məkanın, kainatın üçlü bölgüsündən ibarət olan

"şaquli" kosmik modelin və dörd, beş, səkkiz, doqquz hissəli "üfüqi" məkani modellərin əsasında durur" [7, s.55].

Mahmud Allahmanlı qəhrəmanların doğuluşunun, yaxud yenidən yaradılışının, ağacla əlaqəsi haqqında danışarkən qeyd edir ki, "Oğuzun ikinci arvadından olan övladları da... ağacla bağlıdır. Göy, Dağ, Dəniz adı ilə fəaliyyətə başlayan bu qardaşların mövcudluğunda ağac dayanır. Hansı ki, Basatın ana mövcudluğunda da Qaba ağac dayanır" [1, s.68].

Doğrudan da, Oğuz kağan ikinci xanımını gölün ortasındakı balaca bir adada bitmiş ağacın koğuşundan tapır. Yəni həmin qız yer, torpaq, su və ağac ünsürlərini təmsil edir. Bu halda ağac ünsürü həmin qızdan doğulmuş Göy, Dağ və Dəniz xanların anası, əcdadı, valideyni statusundadır. Koroğlunun da qəhrəman kimi yenidən yarandığı (doğulduğu) bulağın üstündə bitmiş ağac mifoloji simvolikası baxımından dünya ağacı olub, tanrı kimi qəhrəmanın teoqonik valideyni rolunu oynayır. Yəni Koroğlunun yaradılışında Su, Od tanrıları iştirak etdiyi kimi, Ağac tanrısı da iştirak edir.

Koroğunun ulduz ünsürü ilə bağlılığına gəldikdə isə bu ünsür qəhrəmanın göylə bağlı mənşəyini ifadə edir. Yəni qəhrəman yerlə bağlı olduğu kimi, həm də göylər aləmi ilə bağlıdır. Həm də yada salaq ki, Ulduz xan Oğuz kağanın altı oğlundan biri olaraq Oğuz-Türk teoqonik sisteminin əsas ünsürlərindən biridir.

Koroğlunun özü kimi, döyüş atları və silahları da teoqonik semantika daşımaqla ilahi qüvvələrlə bağlıdır. Qırat və Dürat dərya ayğırlarının cinsindədir. Bu, onların teoqonik mənşəyini göstərir. Mehmet Yardımçı türk epik ənənəsində əfsanəvi atların dörd qrupa ayrıldığını göstərir:

1. Göy (səma) mənşəli atlar;
2. Külək mənşəli atlar;
3. Mağara və torpaq mənşəli atlar;
4. Su mənşəli atlar [14, s.756-757].

Buradan aydın olur ki, Qırat su mənşəli, yəni su ünsürü, su tanrısı ilə bağlı atdır.

Koroğlunun əsas döyüş silahı olan Misri qılıncın da göydən düşmüş ildırım daşından düzəldildiyini bilirik. Beləliklə, Rövşənin Koroğluya çevrilməsi prosesi başdan-ayağa və bütün detalları ilə birlikdə təbiət stixiyalarını təmsil edən tanrılarla bağlıdır. Bu da onun Tanrıoğlu kimi Oğuz-Türk teoqonik sisteminə daxil olduğunu təsdiq edir.

**Nəticə**

"Koroğlu" dastanının Azərbaycan variantlarında Koroğlunun öz anasından necə doğulması təsvir olunmur. Rövşən Koroğlunun igidliyə qədərki adıdır. O, yeniyetməlik mərhələsindən igidlik mərhələsinə adladıqdan sonra buna uyğun olaraq Koroğlu adını alır. Rövşənin Koroğluya çevrilməsi inisiasiya mərasimi vasitəsilə baş verir. Rövşənin Koroğluya çevrilməsi prosesində ən mühüm cəhət bu keçidin təbiət güclərini (stixiyaları) təmsil edən tanrıların iştirakı ilə baş verməsidir. Yəni tanrılar Rövşəndən Koroğlu adlı yeni bir qəhrəman yaratmaqla onu teoqnik Tanrıoğluna çevirirlər. O, artıq adi bir adamdan (Rövşəndən) öz hami tanrılarından güc alan yenilməz qəhrəmana çevrilir. Koroğlunu qəhrəman kimi yaranışında Oğuz-Türk mifologiyasının teoqonik obrazlarının əksəriyyəti ilkin təbiət stixiyaları statusunda (Dağ xan, Ulduz xan, Ağac xan, Od xan) iştirak edirlər. Koroğlunun özü kimi, döyüş atları və silahları da teoqonik semantika daşımaqla ilahi qüvvələrlə bağlıdır. Qırat və Dürat dərya ayğırlarının cinsindədir. Bu, onların teoqonik mənşəyini göstərir. Rövşənin Koroğluya çevrilməsi prosesi başdan-ayağa və bütün detalları ilə birlikdə təbiət stixiyalarını təmsil edən tanrılarla bağlıdır. Bu da onun Tanrıoğlu kimi Oğuz-Türk teoqonik sisteminə daxil olduğunu təsdiq edir.

## ƏDƏBİYYAT SİYAHISI

1. Koroğlu dastanı / Azərbaycan dastanları. 5 cilddə, IV c. Tərtib edəni M.H.Təhmasib. Yenidən işləyib nəşrə hazırlayanlar Ə.Cəfərli, H.İsmayılov, S.Axundova. – Bakı: Çıraq, – 2005, – 544 s.

2. Kor-Paris. Koroğlu (Paris nüsxəsi) / Nəşrə hazırlayanı İ.Abbaslı, redaktoru B.Abdulla. – Bakı: Ozan, – 1997, – 208 s.

3. Bayat F. Koroğlu dastanında iki keçid ritualı (inisiasiya) // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. – XXIX kitab. – Bakı: Nurlan, – 2009, – s.56-67

4. Özdemir, S.D. Köroğlu Destanında Su ve Ateş Unsurları // IV Uluslararası Bolu Halk Kültürü ve Köroğlu Sempozyumu Bildirileri. – Ankara: Akçağ Yayınları, – 2015, – s.416-431

5. Çetindağ, S.G. Köroğlu Merkezli Hikayelerin Sembolik Açılımı / Fırat Üniversitesi Soslay Bilimler Enstütüsü, Yayınlanmamış Doktora Tezi. – Elazığ, – 2011

6. Guliyeva (Şehriyar), G. Köroğlu Destanı ve Su Unsuru // IV Uluslararası Bolu Halk Kültürü ve Köroğlu Sempozyumu Bildirileri. – Ankara: Akçağ Yayınları, – 2015, – s.652-662

7. Bachelard, G. Ateşin Tin Çözümlemesi / G.Bachelard. – İstanbul: Öteki Yayınevi, – 2007, – 291 s.

8. Qafarlı, R. Mif, əfsanə, nağıl və epos (şifahi epik ənənədə janrlararası əlaqə) / R.Qafarlı. – Bakı: ADPU nəşri, – 2002, – 758 s.

9. Ələkbərov, Y.X. Azərbaycan nağıllarında mifoloji personajlar / (filologiya üzrə fəlsəfə doktoru dissertasiyası) / – Bakı, 2023, – 173 s.

10. Kaplan, M., Akalın, M., Bali, M. Köroğlu Destanı / – Erzrum: Atatürk Üniversitesi Yayınları, – 1973, – 451 s.

11. Karadavut, Z. Köroğlunun Ortaya Çıkışı / – Bişkek: Kığızistan-Türkiye Manas Üniversitesi Yayınları, – 2002, – 361 s.

12. Hacılı, A. Dünya ağacı // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XI kitab / – Bakı: Səda, – 2002, – s.55-73

13. Allahmanlı, M. Ağlın və yaddaşın dedikləri (məqalələr) / M.Allahmanlı. –Bakı: Ağrıdağ, – 2000, – 140 s.

14. Yardımcı, M. Köroğlunda ve Edibiyatımızda At Kültü // IV Uluslararası Bolu Halk Kültürü ve Köroğlu Sempozyumu Bildirileri. – Ankara: Akçağ Yayınları, – 2015, – s.751-771

**Aynur Aydin FARAJOVA**
Doctor of Philosophy in Philology
Dissertation student of ANAS Institute of Folklore
E-mail:**karimovaaynur@gmail.com**

## THE TRANSFORMATION OF KOROGHLU INTO A HERO AS A THEO-COSMOGONIC INITIATION PROCESS

**Summary**

In the Azerbaijani versions of the "Koroglu" saga, it is not described how Koroglu was born from his own mother. Rovşan is the name of Koroğlu before his bravery. After he was named from the stage of adolescence to the stage of bravery, he received the name Koroglu accordingly. The transformation of Rovsha into Koroglu takes place through the initiation ceremony. The most important aspect in the process of turning Rovsha into Koroglu is that this transition takes place with the participation of gods who represent the forces of nature (elements). That is, by creating a new hero named Koroglu from Rovshan, the gods turn him into the theognic Tanrıoğlu. He turns from an ordinary man (Rovshan) into an invincible hero who receives power from his guardian gods. In the creation of Koroglunu as a hero, most of the theogonic images of Oghuz-Turkish mythology take part in the status of primordial elements of nature (Mountain Khan, Ulduz Khan, Tree Khan, Fire Khan). Like Koroglu himself, war horses and weapons are associated with divine powers, carrying theogonic semantics. Kirat and Durat belong to the breed of sea stallions. This indicates their theogonic origin. The process of Rovsha's transformation into Koroglu is connected with the gods representing the elements of nature from beginning to end and with all its details. This confirms that he was included in the Oghuz-Turkish theogonic system as Tanrıoğlu.

**Key words**: theogony-theo-cosmogony, Rovshan, Koroglu, initiation, passage ritual, Son of God

**Айнур Айдын кызы ФАРАДЖОВА**
Доктор философии в филологии
Диссертант Института Фольклора НАНА

karimovaaynur@gmail.com

## ПРЕВРАЩЕНИЕ КЁРОГЛУ В ГЕРОЯ КАК ПРОЦЕСС ТЕО-КОСМОГОНИЧЕСКОЙ ИНИЦИАЦИИ

**Резюме**

В азербайджанских версиях саги «Кероглу» не описано, как Кероглу родился от собственной матери. Ровшан — это имя Короглу, предшествующее его храбрости. После того как его прозвали от стадии юности до стадии храбрости, он получил соответственное имя Кероглу. Превращение Ровши в Кёроглу происходит посредством церемонии инициации. Важнейшим аспектом в процессе превращения Ровши в Кёроглу является то, что этот переход происходит при участии богов, олицетворяющих силы природы (стихи). То есть, создав из Ровшана нового героя по имени Короглу, боги превращают его в теогнического Танрыоглу. Из обычного человека (Ровшана) он превращается в непобедимого героя, получающего силу от своих богов-хранителей. В создании Короглуну как героя принимает участие большинство теогонических образов огузо-тюркской мифологии в статусе первозданной стихии природы (Горный хан, Улдуз-хан, Древесный хан, Огненный хан). Как и сам Кероглу, боевые кони и оружие ассоциируются с божественными силами, несущими теогоническую семантику. Кират и Дурат относятся к породе морских жеребцов. Это указывает на их теогоническое происхождение. Процесс превращения Ровши в Кёроглу связан с богами, олицетворяющими стихии природы от начала до конца и во всех ее деталях. Это подтверждает, что он был включен в огузско-тюркскую теогоническую систему как Танрыоглу.

**Ключевые слова:** теогония-теокосмогония, Ровшан, Кероглу, инициация, обряд прохождения, Сын Божий.

**Daxil olub:** 13.12.2024